

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

2 İYUN 2024-cü il BAZAR № 115 (7873) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ




# Mühüm beynəlxalq dialoq platforması

## *Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələri dinamik inkişafın yeni perspektivlərini yaradır*

***Dünyada sürətlə dəyişməkdə olan geosiyasi şərait sülh və sabitliyin möhkəmləndirilməsi, iqtisadi inkişafın dəstəklənməsi, ictimai-siyasi tarazlığın qorunması və təhlükəsizliyin təmin edilməsində beynəlxalq təşkilatların üzərinə indi daha böyük vəzifələrin düşdüyünü göstərir. Bu istiqamətdə Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) son illərdə beynəlxalq arenada nüfuzu artan, həm təhlükəsizlik, həm də iqtisadi inkişaf sahələrində mühüm rol oynayan qurum kimi daha çox maraq dairəsindədir. Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əksəriyyəti ilə Azərbaycanı yaxın dostluq, qardaşlıq, strateji tərəfdaşlıq münasibətləri birləşdirir.***

Azərbaycan Avrasiya məkanında xüsusi mövqeyi və çəkisi olan ŞƏT ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Hazırda Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlər Yer kürəsinin 15 faiz ərazisini əhatə edir, dünya ÜDM-nin dörddəbirini və dünya ticarətinin 15 faizdən çoxunu təşkil edir. Bu baxımdan, ŞƏT mühüm siyasi təsirə, əhəmiyyətli iqtisadi imkanlara və nəhəng insan resurslarına malik unikal təşkilata çevrilib. Qeyd edək ki, ŞƏT 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Səmərqənd sammitində İranın quruma tamhüquqlu üzv qəbul edilməsindən sonra üzvlərinin sayı 9-a çatıb. Bunlar Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan və İrandır. Əfqanıstan, Monqolustan, Belarus müşahidəçi üzvlər, Azərbaycan, Türkiyə, Şri-Lanka, Kamboca, Nepal, Ermənistan, Misir, Qətər, Səudiyyə Ərəbistanı dialoq tərəfdaşlarıdır. Təşkilatın əsas məqsədi üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi, siyasət, ticarət, iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, o cümlədən təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması və digər sahələrdə effektiv əməkdaşlığın inkişaf etdirilməsi, regionda sülh, təhlükəsizlik və sabitliyin əldə olunması üçün birgə səylərin göstərilməsi, yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılmasıdır.

ŞƏT-də dialoq tərəfdaşı statusuna sahib olan Azərbaycan təşkilatla əməkdaşlığını daha da dərinləşdirməkdə, müşahidəçi, daha sonra isə tamhüquqlu üzv olmaqda maraqlıdır. Hələ 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. Ölkəmizlə əməkdaşlıq ŞƏT-in özü üçün də olduqca cəlbedicidir. Xüsusən Azərbaycanın Avrasiya məkanında əsas tranzit qovşağa çevrilməsi, Şimal-Cənub, Şərq-Qərb dəhlizlərində yerləşməsi, malik olduğu nəqliyyat infrastrukturu ölkəmizin ŞƏT üçün əhəmiyyətini daha da artırır. Zəngəzur dəhlizinin açılması da təşkilat üçün nəqliyyat-logistika sahəsində əlavə üstünlüklər yaradacaq. ŞƏT-in Səmərqənddə keçirilən sammitində çıxış edən Prezident İlham Əliyev deyib: "Zəngəzur dəhlizinin açılması region ölkələrinin nəqliyyat imkanlarını daha da artıracaq və bu, marşrut üzərində yerləşən bütün ölkələr üçün faydalı olacaq".

Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının 2022-ci il sentyabrın 15-16-da Səmərqənddə keçirilən sammitində iştirakı həm ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun, həm də dünyada qətiyyətli və uzaqgörən lider kimi böyük hörmət qazanmış Prezident İlham Əliyev şəxsiyyətinə dərin hörmət və ehtiramın göstəricisi idi. Sammitin yekunu olaraq qəbul edilən Səmərqənd Bəyannaməsi qurum çərçivəsində əməkdaşlığın daha da dərinləşəcəyini göstərir. Səmərqənd Bəyannaməsi təşkilatın gələcək inkişafını müəyyənləşdirməklə, qlobal və regional gündəlikdə duran aktual məsələlər üzrə ŞƏT dövlətlərinin vahid mövqeyini ifadə edir. Sənəddə praktiki əməkdaşlığın daha da təkmilləşdirilməsi, regional sabitliyin, təhlükəsizliyin və davamlı iqtisadi inkişafın təmin edilməsi, nəqliyyat əlaqələrinin gücləndirilməsi, eləcə də mədəni dialoqun dərinləşdirilməsinə dair birgə yanaşmalar əksini tapıb. Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ÇXR Sədri Si Cinpin ilə görüşündə bu məsələlər bir daha müzakirə edilib. Si Cinpinin Azərbaycanla Çin arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını və yüksək səviyyədə inkişaf etdiyini bəyan etməsi rəsmi Pekinin Bakı ilə münasibətlərə verdiyi böyük önəmin təzahürüdür.

**(davamı 2-ci səhifədə)**

# Mühüm beynəlxalq dialoq platforması

## *Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələri dinamik inkişafın yeni perspektivlərini yaradır*

**(əvvəli 1-ci səhifədə)**

Ümumiyyətlə, Azərbaycan-Çin münasibətləri dinamik inkişaf məcrasına keçib və ölkələr arasında müxtəlif səviyyələrdə təmaslar artıb. Bu, onu deməyə əsas verir ki, hər iki ölkə əlaqələrin daha da genişləndirilməsində eyni dərəcədə maraqlıdır. İkitərəfli münasibətlərin inkişafı bundan sonra da dönməz xarakter alacaq. Bu isə həm də qlobal miqyasda müsbət qiymətləndirilməlidir. Çünki Azərbaycanın Çinlə əlaqələri Rusiya, İran və Qərb ölkələri ilə əlaqələrə də təsir edir. Bu gün beynəlxalq aləmdə Azərbaycanın artan nüfuzunu qəbul etmək istəməyən imperialist qüvvələr bilməlidirlər ki, Azərbaycan heç kimdən asılı olmadan tamamilə müstəqil siyasət yürüdür və tərəfdaşlarını məhz özü seçir.

Çin Xalq Respublikasının Sədri Si Cinpinin Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrikdə bildirilir ki, hazırda iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərində dinamik inkişaf tendensiyası müşahidə olunur, siyasi etimad möhkəmlənir, "Bir kəmər, bir yol"un birgə tikintisi çərçivəsində əməkdaşlıq dərinləşir və beynəlxalq arenada sıx qarşılıqlı fəaliyyət həyata keçirilir. "Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına yüksək diqqət yetirirəm və iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə dərinləşdirilməsi və ikitərəfli əlaqələrin yeni səviyyəyə yüksəldilməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram".

"Yaşıl enerji" Çinlə Azərbaycan arasında inkişaf etməkdə olan münasibətlərin mühüm istiqamətlərindən biridir. "Qaradağ" Günəş Elektrik Stansiyasının inşasında Çinin "Dongfang" şirkətinin iştirakı, "Acwa Power" şirkətinin Azərbaycanda "yaşıl enerji" ilə bağlı inşa etdiyi stansiyanın texniki təminatında Çin şirkətlərinin rolunu rəsmi Bakı yüksək qiymətləndirir. Bu, bir daha təsdiq edir ki, Azərbaycan-Çin əməkdaşlığı sadəcə, nəqliyyat-logistika sahələri ilə məhdudlaşmır. Bu əlaqələr bir çox istiqamətləri əhatə edir və həyata keçirilməkdə olan layihələrin miqyası hər keçən il daha da genişlənir. Bütün bunlar iki ölkənin maraqlarına cavab verir. Azərbaycanda Çin investisiyalı 275 şirkət qeydiyyatdan keçib. Bundan başqa, ölkəmizin işğaldan azad edilən ərazilərində həyata keçirilən infrastruktur layihələrində iştirak üçün Çin şirkətləri də müraciət ediblər. "Huawei" şirkəti isə artıq bölgədə "ağıllı kənd" və "ağıllı şəhər" layihələrinin icrasına başlayıb. İqtisadi əlaqələr siyasi münasibətlərin inkişafı üçün əsas yaradır. Bu baxımdan, Çinin Azərbaycanla münasibətləri həm də strateji tərəfdaşlıq xarakteri daşıyır. Qarşıdakı dövr ərzində Azərbaycan-Çin münasibətlərinin daha dinamik inkişafı gözlənilir. Bununla yanaşı, ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini, eləcə də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər bir tədbirin Azərbaycanda keçiriləcəyini nəzərə alaraq ekologiya sahəsində geniş əməkdaşlıq imkanlarının olduğunu qeyd etmək lazımdır.

Azərbaycan ŞƏT-ə üzv olan bütün ölkələrlə ikitərəfli səviyyədə yaxşı münasibətlər qurub və bu əlaqələri ildən-ilə uğurla inkişaf etdirir.

**Mustafa KAMAL,**
**"Respublika".**